# Azərbaycanın Əməkdar artisti Türkmənistanda beynəlxalq tədbirdə ölkəmizi təmsil edib



**Azərbaycan Respublikasının Əməkdar artisti Səidə Şərifəliyeva Türkmənistanın paytaxtı Aşqabadda keçirilən "Dünyanın musiqisi" adlı beynəlxalq festivalda ölkəmizi təmsil edib.**

Azərbaycanın Türkmənistandakı səfirliyindən AZƏRTAC-a bildirilib ki, Türkmənistan Mədəniyyət Nazirliyinin təşkilatçılığı və Azərbaycanın Türkmənistandakı səfirliyinin dəstəyi ilə ölkəmizin də təmsil olunduğu bu nüfuzlu tədbir klassik musiqi sahəsində müxtəlif milli musiqi məktəblərini əhatə edən ifaçılar arasında yaradıcılıq əlaqələrinin qurulması, beynəlxalq əməkdaşlığın genişləndirilməsi və klassik musiqi sənətinin təbliği məqsədini daşıyıb.

Tədbirdə opera ifaçıları, klassik musiqi alətlərinin ifaçıları, həmçinin trio, kvartet və kvintetlərdən ibarət musiqi kollektivləri iştirak ediblər.

Azərbaycanı layiqincə təmsil edən Səidə Şərifəliyevanın ifaları tədbir iştirakçıları və təşkilatçıları tərəfindən böyük maraq və rəğbətlə qarşılanıb.

Onun ifasında səslləndirilən klassik musiqi nümunələri Azərbaycanın zəngin mədəniyyətini və musiqi ənənələrini nümayiş etdirərək, ölkəmizin incəsənət sahəsindəki yüksək potensialını bir daha ortaya qoyub. İfaçının həmçinin Azərbaycan Prezidentinin sərəncamı ilə ölkəmizdə və bütün dünyada 140 illiyi qeyd olunan dahi bəstəkar Üzeyir bəy Hacıbəylinin əsərlərindən təqdim etdiyi nümunələr tamaşaçılar tərəfindən xüsusi maraqla qarşılanıb.

Əməkdar artist Səidə Şərifəliyevanın ifasında səsləndirilən Üzeyir bəy Hacıbəylinin "Arşın mal alan" operettasından Gülçöhrənin ariyası və Türkmənistanın məşhur vokalisti Mənsur Şərifovla birgə ifa etdiyi Əsgərlə Gülçöhrənin dueti xüsusi olaraq rəğbətlə qarşılanıb.

Azərbaycan.- 2025.- 21 may (№ 104).- S.11.